

MUSA ƏLƏKBƏRLİ

### AD VERƏNLƏR YANILMAYIB

*Professor Şirməmməd Hüseynovun 90 illik yubleyinə*

Ad verənlər yanılmayıb bu adda,
Ad önünə Şir sözünü nəqş edib.
Baxıb görüb işi çoxdu həyatda
Tanrı ona uzun ömür bəxş edib.

Qələm olub, məslək olub, bir də o,
Öyrənməkdən, öyrətməkdən həzz alıb.
Haqqı deyib haqsız dinən yerdə o
Sabirlərdən, Cəlillərdən dərs alıb.

Hər sözündə qalib çıxıb ədalət,
Məna verib ömrünün hər anına.
Əzmkarlıq, döyüşkənlik, cəsarət
Çox şey yazıb o kişinin şanına.

Qələm çalır, yoxdu gecə-gündüzü,
Şir gücünü o, əridir qolunda.
Haqqı var ki haqdan alır haqq sözü
Ömür qoyur Məmməd Əmin yolunda.

ATATÜRK MƏRKƏZİ - millət atası
Böyük Atatürkün odasıdır bu.
Köməyə yetişib, hoya çatası
Bir ümid, ümidgah adasıdır bu!

İnsanlar üzülmür heç vaxt yanından,
Sənin dəyişməyən halına əhsən!
Fırtına qorxusu çıxıb canından,
Dərya qoynundakı salına əhsən!

Daim yaxşılıqdır fikrin, niyyətin,
Könül ki qırmadın xəta eyləyib.
Tanrı sənin kimi bir şəxsiyyəti
Türkə, türkçülüyə əta eyləyib.

Ürək genişliyin, hissin, ağılın
Çox incə duyğular oyatmaqdadır.
Vurğun səxavəti, Vurğun nağılı
Adınla təzədən boy atmaqdadır.

Çevikdi, yüyrəkdi şerin də dili,
Ürəkdən gəlirsə, o saxta deyil.
Milli ruhu varsa millət vəkili
Heç zaman millətdən uzaqda deyil.

Şairi qınama sözünün üstə,
Qürur yaşamışam, səninlə qürur.
Unutma Qazağın yolunun üstə
Yayda gül-çiçəkli Gədəbəy durur!

### SÖZÜN İŞIĞINDA YAŞAYAN KİŞİ

*Qələm dostum İntiqam Qasımzadənin 70 illiyinə.*

Sənin sözdən çıxır çörəyin, duzun,
Ona bağlı olub ən böyük arzun.
Ömrün söz ömrüdür - ömürdən uzun,
Sözün işığında yaşayan kişi.

Ürəklə, istəklə din ondan söz açsan əyər,
Şeirimizdə önəmli bir addır Oqtay Rza.
Üz tutsam bu məclisə hamı bir səslə deyər,
Kamil bir söz adamı - ustaddır Oqtay Rza!

### YOVŞANLI ÇÖLLƏR

**Qələm dostum Şölət Əfşara**

Yovşanlı çöllərdə türkün bitməyi
Yurd-yuva qurmağı təbii haldır.
Şerində vəsf elə sən bu yovşanı,
Göylərin yeddinci qatına qaldır.

Yovşanlı çöllərin nəhayəti yox
Qoyunlar-quzular mələşir, orda.
Kimin bu bitkiyə məhəbbəti yox
Deməli ögeydir seçdiyin yurda...

Yovşanlı çöllərə atlanaq dedin
Nə keçdi könlündən ay Şölət Əfşar,
Bir az da zəhmətə qatlanaq dedin
Yol gedək yolların ayrı zövqü var.

Yol gedək yolların əvəzi hanı,
Atalar sözləri əbəs deyilmir.
Yollarda tanıyır insan insanı
Yolluğu olmayan dost ola bilmir.

Orda yurdan-yurda köçmək yanğısı,
Orda tərəkəmə eli-elatı.
Orda əsrlərin qatından keçən
Dilimizə axan layla, bayatı.

Qurub yaradacaq öz həyatını
Məsəl var atadan, babadan qalma.
Türkün şahə qalxan köhlən atını
Yovşanlı düzünü əlindən alma.

# Mənim könül dünyamda doğmaların yeri var, Hər birinin istəyi, hər birinin şeiri var

Qayımlaşır daş tərəzi əyəndə,
Əyrilərin axırına çıxır o.
Bir namuslu, cəsur sözü deyəndə
Qəlbini yox, yumruğunu sıxır o.

Məslək dostu, könül dostu Bəxtiyar,
Şeri üçün ondan fikir umardı.
Tənqid etsə bu sahibi-ixtiyar
Nə dincələr, nə gözünü yumardı.

Tufandaydı, şairin söz-yelkəni,
Az qalırdı ümmanlarda artsın o.
Çalışırdı hər misranı, kəlməni,
Öz dostunun ürəyincə yazsın o.

Bir örnəkdir dönməzliyi, sərtliyi,
Vətən üçün, torpaq üçün oyanır.
Dar ayaqda kişiliyi, mərdliyi,
Ön cərgədə, ilk sırada dayanır.

Ad seçənlər yanılmayıb bu adda,
Ad önünə şir sözünü nəqş edib.
Baxıb görüb işi çoxdur həyatda
Tanrı ona uzun ömür bəxş edib!

### ADIN UCALIĞI

*Millət vəkili, dostum Nizami Cəfərova*

Adın ucalığı tanrıdan gəlib,
Tale tək, qismət tək verilib sənə.
Nizami adıyla sən də yüksəlib
Ziya nuru saçdın yurda, vətənə.

Bir ömür əlləşdin ocaqla, odla
Gündüz dincəlməyib, gecə yatmayıb.
Gəncəvidən sonra hələ bu adla
Kimsə sənin qədər kama çatmayıb.

Həmişə dildə gəz, həmişə öyül,
Haqqına deyilən tərif bahadır.
Nizami Cəfərov Gəncəvi deyil,
Gəncəvi adına layiq dühadır.

Yanına gələnlər, gedənlər bol-bol,
Ürəyin genişdir, qapın açıqdır.
Yaxşılıq naminə tutduğun bu yol
Gedib övliyalar yoluna çıxdı.

Dərddi susuz qalıb bir çiçək solsa,
Dərd də var birbaşa fələkdən keçər.
Səxavətin qədər sərvətin olsa
Məzlumlar düzülər boy sırasına
Ələnər, əlində ələkdən keçər.

Sərrafsan seçirsən əsil daş-qaşı,
Keçməz süzgəcindən bir "blef", naşı.
Yaxşı şairlərin dostu, sirdaşı
Duyan könüllərə aşiyan kişi.

Qoşmayla dindirək Qasımzadəni,
O ruhu təmizi, qəlbi sadəni.
... İllər yük saymayıb ömrünə səni,
Sənətin yükünü daşıyan kişi!

### OQTAY RZAYA 80 İLLİYİ MÜNASİBƏTİ İLƏ

Kitabını oxumur indi heç kəs heç kəsin
Hamının kitabına bələddir Oqtay Rza.
Qəlbində ümmanı var hələ eşqin, həvəsin,
Öz adıyla-sanıyla sənətdir Oqtay Rza.

O qədrini biləndir bilməyənin, bilənin,
Dünyanın gəlişindən-gedişindən halıdır.
Yazıçılar Birliyi deyilən ailənin
Həm ərköyün cavanı, həm də ağsaqqalıdır.

Yazdığı hər əsərdə sözü aydın, fikri tam,
Hədəfdən yan ötməyir bir misrası, kəlməsi.
Onunçün ayaqdadır həmişə şeir, ilham
Qələm tutub "gəl" desə nə haqqı var gəlməsin?!

İncilər bəxş eləyir müdrikdən müdrik təbi,
Dördlükdə, rübaidə hey çapırdır atını.
Çox ödüllər görsə də onun şeir məktəbi
Səksən yaşıyla alır tanrı mükafatını.

Necə safdır, təmizdir şeirə məhəbbətində,
Yanacaqdan yan ötür yaşına hörmət üçün.
Bənzərsiz cizgilər var həlim təbiətində
Bəlkə də gecikmişik biz əsil qiymət üçün.

Sənin təklifində ayrı hikmət var
Demə anlamadıq, demə duymadıq.
Ömür gəlib keçdi ay Şölət Əfşar
Vətən torpağını gəzib doymadıq.

### KİŞİ

*Həyatda da, sənətdə də kişi ömrü yaşayan sənət fədaisi Teyyub Qurbanın 80 yaşına.*

Həqiqət çox acı olur,
Onu şirin edən kişi.
Hamının getdiyi yolu
Özü kimi gedən kişi.

Bizim üçün bir örnəksən,
Söz yükünü hələ çək sən.
Bu əzminlə yeksən, təksən
Yamanlığı didən kişi.

Üz qarası ötən əsrin
Müşkülüydü neçə kəsrin
Ay qurduğu uca qəsrin
Zirvəsində bitən kişi.

El qəmidir çəkdiyin qəm,
Halal ömür, halal qələm.
Sənindir bu külli-aləm,
Gileylisən nədən kişi?!

Saç ağartdın arxivlərdə,
Güzgü oldun gizli dərdə.
Mərd gedişlər çatır mərdə
Haqq dadına yetən kişi.

Doğruluğun aşiyanı,
Qəlbində qəm daşıyanı!
Kişi kimi yaşayanı
Unutmaz bu Vətən kişi!

